**UOT 792.03**

**ƏLİ QƏHRƏMANOV***

# RƏSSAM, SƏNƏTŞÜNAS-ALİM ADİL QAZIYEV

*Məqalədə Azərbaycan təsviri sənət sahəsində professional rəssamlıq ənənələri yaradan Bəhruz Kəngərlinin yetirməsi olan rəssam, sənətşünaslıq doktoru Adil Qazıyevin sənət yoluna nəzər salınır, fəaliyyətinin özünəməxsus nüansları vurğulanır. Həmçinin bir sıra tarixi mənbələr əsasında hazırlanan məqalədə rəssam, alim, sənətşünas, redaktor, tərcüməçi olan professor Adil Qazıyevin Azərbaycan dekorativ tətbiqi və təsviri sənəti ilə əlaqədar kitab, monoqrafiya, məqalələrindən, tərcüməçilik fəaliyyətindən bəhs olunur və teatr rəssamı kimi Naxçıvan teatrında 1922-1929-cu illərdə tamaşaya qoyulan əsərlərə: "Məşədi İbad", "Şah Abbas və Xurşidbanu", "Aşıq Qərib", "Leyli və Məcnun", "Arşın mal alan" (Ü.Hacıbəyov), "Əlli yaşında cavan" (Z.Hacıbəyov), "Pəri cadu", "Ağa Məhəmməd şah Qacar" (Ə.Haqverdiyev), "Pəhləvənani-zəmanə" (N.Vəzirov), "Laçın yuvası" (S.S.Axundov), "Hacı Qara" (M.F.Axundov), "Dəmirçi Gavə" (Ş.Sami), "Ölülər", "Anamın kitabı" (C.Məmmədquluzadə), "Oqtay Eloğlu", "Aydın", (C.Cabbarlı), "Şeyda", "Şeyx Sənan" (H.Cavid), "Azadlıq günəşi" (M.Nəsirli), "Nadir şah" (N.Nərimanov), "Hind ixtilaçıları" (H.Fitrət), "Evlənmə", "Müfəttiş" (N.Qoqol), "Otello", "Hamlet" (V.Şekspir), "Tələbələrin kələyi" (B.Tomas), "Qanlı qala" (A.Düma), "İki yetimə" (K.Qoldoni), "Məkr və məhəbbət", "Qaçaqlar" (F.Şiller), "Jorj Danden" (J.Molyer) və s. verdiyi uğurlu bədii quruluşlaradan da söz açılır.*

**Açar sözlər**: *Adil Qazıyev, rəssam, sənətşünas alim, qrafik, miniatür, tamaşa.*

XX əsrin əvvəlləri Azərbaycan tarixinin ağrılı-acılı, tale yüklü səhifəsi olsa da, ölkəmizdə maarif, mədəniyyət və incəsənətlə bağlı mənzərə tamamilə fərqli idi. Bu dövrdə incəsənətimiz, xüsusilə təsviri sənət sahəsi ənənəvi çalarlarla inkişafını davam etdirir, professional rəssamlıq ənənələri yaranırdı. Azərbaycan rəngkarlıq sənətində ilk akademik rəsm üslubunda realist əsərləri ilə novatorluğa yol açan Bəhruz Kəngərli (1892-1922) zəngin bədii irsi ilə Azərbaycan təsviri sənətində bu ənənələrin yaranmasına yeni nəfəs gətirmiş, ölkəmizdə yenicə formalaşmağa başlayan bu sənətin bir çox janrlarının inkişafında mühüm xidmətlər göstərmişdir. Naxçıvan Muxtar Respublikasında Bəhruz Kəngərli yaradıcılığından bir çox rəssamlar: Adil Qazıyev, Şamil Qazıyev, Hüseyn Əliyev, Əyyub Hüseynov, Nağı Nağıyev, Məmməd Qasımov, Yuran Məmmədov, Sabir Qədimov, Mircəlil Seyidov, Şəmil Mustafayev, Abuzər Qardaşbəyov, Babək Abuzərli, Əbülfəz Axundov və başqaları zaman-zaman bəhrələnmiş, onun davamçıları kimi yaşayıb-yaratmış və Azərbaycanda təsviri sənətin inkişafına öz töhfələrini vermişlər. Bu ənənəni bu gün də Xalq rəssamı Hüseynqulu Əliyev, respublikanın Əməkdar rəssamları: Ülviyyə Həmzəyeva, Cavid İsmayılov, Həbibə Allahverdiyeva, Telman Abdinov, rəssamlar Həmzə Sadıqov, Əli Səfərov, Ləman Məmmədova, sənətşünaslar Nizami Alıyev, Fizzə Quliyeva, Şəmsiyyə Zalova və digərləri davam etdirirlər.

Bu gün adı sənətşünasların yaşlı nəsli arasında hörmətlə çəkilən sənətşünas- alim, rəssam Adil Qazıyev də Bəhruz Kəngərli yaradıcılığından ilham alan sənətkarlardandır. "Onun yaradıcılığı ilə başqa sahələrdə çalışan insanların çoxu yəqin ki, tanış deyildir. İlk rəssamlıq sənətinin sirlərini Bəhruz Kəngərlidən öyrənən və taleyini təsviri sənətə bağlayan Adil Qazıyev müəllimi kimi tanınmış rəssam ola bilməsə də, Azərbaycan təsviri və dekorativ-tətbiqi sənətinin tarixinə və inkişaf problemlərinə, o cümlədən minatür, xəttatlıq sənəti və əlyazmaların bədii tərtibatına dair apardığı elmi tədqiqatlarla məşhurdur" [1].

Adil Yusif oğlu Qazıyev 1906-cı il mart ayının 24-də Naxçıvanda anadan olub, ilk təhsilini "Məktəbi tərbiyə" məktəbində alıb. Rəssamlıq sənətinin sirlərini B.Kəngərlidən öyrənən Adil Qazıyev 1922-ci ildə Naxçıvan teatrında rəssam kimi fəaliyyətə başlayır. Rəssamlıq sənətinə olan həvəs onu Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda təhsilini davam etdirməyə sövq edir və 1925-ci ildə bu təhsil ocağının ilk məzunlarından olur.

Məlum olduğu kimi, 1920-ci ildən başlayaraq Azərbaycanda digər sahələrlə yanaşı, rəssamlıq sənəti də inkişaf etməyə başlayır. "Bu dövrdə, Azərbaycan Xalq Komissarlar Sovetinin sədri Nəriman Nərimanovun təşəbbüsü ilə Azərbaycan Xalq Maarif Komissarı Dadaş Bünyadzadə Bakıda azad rəssamlıq elmalatxanasının əsasında Azərbaycan Rəssamlıq Studiyası təşkil edir. Tezliklə bu studiya Ali Bədii emalatxanalar, sonra isə Ali Azərbaycan Rəssamlıq Məktəbi adlandırılır. Məktəbdə rəssamlıq, heykəltəraşlıq, qrafik sənət və bədii tikiş ixtisasları tədris olunurdu. 1923-cü ildə Ali Azərbaycan Rəssamlıq Məktəbinin nəzdində tətbiqi sənət şöbəsi də yaradılır və 1924-cü ildə bu məktəb Azərbaycan Rəssamlıq Pedaqoji Texnikomu adlandırılır. Həmin il texnikomun rəngkar, qrafik və teatr tərtibatçısı rəssamlarının ilk buraxılışı olur. Buna baxmayaraq, məktəbdə milli pedaqoji kadrlara ehtiyac duyulduğundan, Azərbaycan Rəssamlıq Pedaqoji Texnikomunun məzunları və azərbaycanlı tələbələrin böyük bir qrupu təhsil almaq üçün Moskva, Kiyev Rəssamlıq İnstitutlarına, Leninqrad (Sankt-Peterburq) və Tiflis Rəssamlıq Akademiyalarına göndərilir" [2, s. 47; 4, s.266].

Təhsilini davam etdirmək üçün Adil Qazıyev də Moskvaya gedir və 1927-1931-ci illərdə Moskva Dövlət Tekstil (Toxuculuq) Universitetinin Rəssamlıq fakültəsində rusiyanın tanınmış sənətkarları Sergey Gerasimov və Aleksandr Kuprinin sinifində təhsil alır. Bilik və bacarığı ilə seçilən A.Qazıyev universiteti bitirdikdən sonra müəllimlərinin zəmanəti ilə 1932-1936-cı illərdə universitetin aspiranturasında oxuyur və eyni zamanda universitetinin sənətşünaslıq fakültəsində (1932-1941) müəllim işləyir. 1938-ci ildə texniki elmlər namizədi alimlik dərəcəsi elmi adını alır.

Böyük Vətən müharibəsi başlayanda Bakıya qayıdır və 1941-ci ildən Bakı Kinostudiyasında quruluşçu rəssam kimi fəaliyyətə başlayır, eyni zamanda 1945-ci ilədək Azərbaycan Rəssamlıq Texnikomunda müəllimlik edir. "Azərbaycanda Elmlər Akademiyası yaradılanda (1945) taleyini Memarlıq və İncəsənət İnstitutu ilə bağlayır. 1945-1972-ci illərdə bu institutda Təsviri sənət şöbəsinin müdiri, 1946-1952-ci illərdə isə Azərbaycan Dövlət Universitetində incəsənət kafedrasının müdiri vəzifəsində işləyir. 1958-ci ildə uğurla dissertasiya müdafiə edərək sənətşünaslıq üzrə elmlər doktoru elmi dərəcəsini alır. 1972-ci ildə professor adına layiq görülür. O, Azərbaycan təsviri və dekorativ-tətbiqi sənətlərinin tarixi və inkişaf problemlərinə, o cümlədən xəttatlıq sənəti və əlyazmaların bədii tərtibatına dair elmi tədqiqatların müəllifidir" [5, s. 332].

Əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyev yazır: "Onun elmi fəaliyyətində müasirlərinin çoxundan fərqli olaraq bir dəfə də olsun əhəmiyyətsiz mövzuya müraciət etdiyinə rast gəlmək mümkün deyil. Xalqımızın uzaq-yaxın keçmişdə yaratdığı bədii irsə çox fərqli və dərindən elmi münasibət bildirən Adil Qazıyev müxtəlif illərdə qədim kitab mədəniyyətimizə və xəttatlıq sənətinə, üslubların şahı kimi dəyərləndirilən miniatürə, dekorativ-tətbiqi sənətə həsr olunmuş tədqiqatları ilə sənətşünaslıq elmimizi zənginləşdirdi" [1]. Onun miniatür sənəti ilə bağlı araşdırmaları haqqında isə sənətşünaslıq doktoru Cəmilə Həsənzadə yazır: "O vaxtı miniatürlə məşğul olan yox idi. Adil Qazıyev özünü fəda elədi, şəhid oldu bu yolda. O qədər işlədi ki, sözün həqiqi mənasında kor oldu. Sonra ona laborant verdilər. Bu laborant faktiki onun gözü idi. Necə ki, kəpənək şamın həndəvərində fırlanır ha... Adil Qazıyev kəpənək idi, şam da miniatür. O, hər şeyini, canını, ömrünü, gözlərini bu sənətə qurban verdi... " [6].

Onun Moskvada nəşr olunan "XIII-XVII əsrlər Azərbaycan əlyazmalarının bədii tərtibatı"

(1977) kitabını qətiyyətlə XX əsr Azərbaycan sənətşünaslığının yaddaqalan uğuru saymaq olar. Əminliklə demək olar ki, alimin təsviri və tətbiqi sənəti yüksək professionallıqla dəyərləndirə bilməsinin kökündə onun həm də rəssam olması durur. Bəhruz Kəngərli ilə tanışlıqdan sonra Adil Qazıyev davamlı olaraq dünyamıza cizgi və rənglərlə münasibətini bildirməkdə davam etsə də, təsadüfi hallarda onları sərgilərdə nümayiş etdirmişdir... Adil Qazıyev sonralar öz müəllimi haqqında xatirələrində yazırdı: "Bəhruz mənim çəkdiyim şəkillərə diqqətlə baxdıqdan sonra sən şəkil böyütməkdən əl çək, naturadan baxıb çəkməsən, bir şey öyrənə bilməzsən... Mən tez-tez Bəhruzun evinə gedirdim, onun işlərinə baxırdım, o mənə məşhur rəssamların həyatından, əsərlərindən maraqlı söhbətlər edər, rəssamlığın nəzəri cəhətlərindən və texniki vərdişlərindən məlumat verərdi... Mənim rəssam olmağıma, xüsusi rəssamlıq təhsili almağıma Bəhruz səbəb oldu..." [3].

Onun rəsm etdiyi "İki dəmirçi" (1928-1930), "Bəhruz Kəngərlinin portreti" (1931 və 1942), "Mirzə Fətəli Axundovun portreti" (1939) və "Naxçıvan motivləri" (1938) və yüzlərlə rəngkarlıq, qrafika əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində, Milli Azərbaycan Tarixi Muzeyində və Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində qorunur.

Rəssamın qrafik lövhələri demək olar ki, təsviri sənətin bütün janrlarını əhatə edir. Onun Bakı Rəssamlıq Məktəbində oxuduğu dövrdə ərsəyə gətirdiyi nümunələr yüksək professionallığı ilə seçilir. "Bir vaxtlar Naxçıvanda Bəhruz Kəngərlidən aldığı sənət vərdişlərini yeni məkanda kamilləşdirən gənc rəssamın çəkdiyi portretlər obrazların mənəvi-psixoloji tutumunun yaddaqalan ifadəsi ilə diqqət çəkir. Bu mənada 1923-cü ildə çəkilmiş "Qoca" və "Uşaq" portretlərini qeyd etmək istərdik. Bu iki qrafik əsərdə geyimləri kifayət qədər bədii ümumiləşdirmələrlə təqdim edən rəssam obrazların üz cizgilərinin bədii şərhində yüksək sənətkarlıq nümunəsi sərgiləmişdir. Etiraf edək ki, onun görünən hər bir detala bəxş etdiyi faktura heyrətamizdir" [1].

Adil Qazıyev orta və ali ixtisas təhsili alandan sonra etiram əlaməti olaraq öz müəllimi, Azərbaycanda realist rəssamlıq sənətinin banisi, ustad sənətkar – Bəhruz Kəngərlinin iki portretini yağlı və sulu boya ilə işləyir. O, bu portretləri Bəhruz Kəngərlinin dövrümüzə gəlib çatan bütün təsvirlərdəki görünüşündən fərqli olaraq milli papaqda yaradır.

Doğma yurda, onun mənzərələrinə ürəkdən bağlı olan Adil Qazıyevi Vətən sevgisi ömrünün sonunadək tərk etmir. Onun müxtəlif illərdə yaratdığı "Möminə xatun türbəsi", "Yusif Küseyroğlu türbəsi", "Əshabül-kəhf dağı", "Nəhəcir dağı", "Naxçıvan şəlaləsi", "İlandağ" və digər əsərlərinin təsvirində doğma Naxçıvana olan sonsuz məhəbbəti qabarıq şəkildə duyulmaqdadır.

Onun bədii irsində ağ-qara cizgilərlə çəkdiyi rəsmlər xüsusi yer tutur. Bunun başlıca səbəbi həmin qrafik lövhələrin bədii tutumunu şərtləndirən cizgi ahəngdarlığının özünəməxsus estetikaya malik olmasıdır. Hər bir əsərində işıq-kölgə təzadından ustalıqla istifadə edən rəssam, həm müxtəlif insan xarakterlərinin səciyyəvi xüsusiyyətlərini, həm də təbiət motivlərinin duyğulandırıcı məqamlarını incə, cizgi ritmi və uyarlığı ilə yaddaqalan tərzdə ifadə etməyə nail olmuşdur.

Onun yüz doxsan dörd rəsmli müəllif albomlarda milli məişətimizi əks etdirən digər motivlərə də rast gəlmək olar. Rəssamın bərbərxanaya, hamama, çayxanaya arifanə şəkildə göz qoyması və öküzlərin nallanmasını diqqətlə müşahidə etməsinin nəticəsi qısamüddətli rəsmlərdə baş verənlərin inandırıcı və cəlbedici təsviri də izləyiciləri məftun edir.

Adil Qazıyev səhnəqrafiya sahəsində də mühüm xidmətlər göstərmişdir. Naxçıvan teatrında 1922-ci ildən 1929-cu ilədək tamaşaya qoyulan müxtəlif janrlı əsərlərə bədii tərtibat vermişdir. Onun bədii tərtibatlarında "Məşədi İbad", "Şah Abbas və Xurşidbanu", "Aşıq Qərib", "Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan" (Ü.Hacıbəyov), "Əlli yaşında cavan" (Z.Hacıbəyov), "Ağac kölgəsində", "Pəri cadu", "Ağa Məhəmməd şah Qacar" (Ə.Haqverdiyev),

"Pəhləvənani-zəmanə" (N.Vəzirov), "Laçın yuvası" (S.S.Axundov), "Hacı Qara" (M.F.Axundov), "Dəmirçi Gavə" (Ş.Sami), "Ölülər", "Anamın kitabı" (C.Məmmədquluzadə), "Oqtay Eloğlu", "Aydın", "Sevil" (C.Cabbarlı), "Şeyda", "Şeyx Sənan" (H.Cavid), "Azadlıq günəşi" (M.Nəsirli), "Nadir şah" (N.Nərimanov), "Hind ixtilaçıları" (H.Fitrət), "Evlənmə", "Müfəttiş" (N.Qoqol), "Otello", "Hamlet" (V.Şekspir), "Tələbələrin kələyi" (B.Tomas), "Qanlı qala" (A.Düma), "İki yetimə" (K.Qoldoni), "Məkr və məhəbbət", "Qaçaqlar" (F.Şiller), "Jorj Danden" (J.Molyer) müxtəlif rejissorların (H.Səfərli, K.Ziya, S.Mövləvi, H.Ağayev) quruluşlarında səhnəyə qoyulmuşdur.

Rəssam, sənətşünas-alim, redaktor, tərcüməçi olan professor Adil Qazıyev Azərbaycan dekorativ tətbiqi və təsviri sənəti ilə əlaqədar 14 kitab və monoqrafiyanın: "Rəng nəzəriyyəsinin əsasları" (1951), "Xalq rəssamı Əzim Əzimzadə" (1953), "Rəsmin tədris üsulu" (1954), "Memarlıq, inşaat və təsviri incəsənət terminləri lüğəti" (1956), "Qayçının möcüzələri. İzomaterial: bədii kəsmə" (1970) Azərbaycan dilində; "Xalq məişət mədəniyyəti haqqında". Azərbaycan incəsənəti (О видах народного бытового искусства. "Искусство Азербайджана" т. 4 (1954), "Orta əsrlər nəqqaşlıq (rəssamlıq) haqqında" (Средневековый трактат о живописи (1957), "Orta əsrlər nəqqaşlıq haqqında" (Средневековый трактат о живописи (1960), "Azərbaycanın orta əsrlərə aid kalliqrafiya və xəttatlıq sənəti haqqında" (О средневековой каллиграфии и хаттатах Азербайджана (1963), "Azərbaycan incəsənəti: Nizami "Xəmsəsi"nin 1539-1543 minatür əlyazmaları" (Искусство Азербайджана: Миниатюры рукописи "Хамсэ" Низами 1539-1543 гг, (1964), "XVI əsrin sonu, XVII əsrin əvvəlləri Azərbaycan miniatür incəsənəti haqqında" (Об искусстве Азербайджанской миниатюры кон. XVI и нач. XVII в. (1964), "Sadiq bəy Əfşar" (Садиг-бек Афшар (1965), "Orta əsrlər nəqqaşlıq kitabları, bədii-texniki materiallar, terminologiya və cildləmə mədəniyyəti" (Художественно-технические материалы и терминология средневековой книжной живописи, каллиграфии и переплетного искусства (1966), "Ə.Caminin Lavaexin miniatür atributu" (Атрибуция миниатюр рукописи Лаваех А. Джами (1966) rus dilində müəllifi olmuşdur. Görkəmli alimin yüzlərlə elmi məqaləsi bir çox jurnallarda çap olunmuşdur. O, bir çox əsərlərin: "Azərbaycan xalq memarlığı XIX-XX əsrlərdə" (Q.M.Əlizadə), "Рустам Мустафаев" (Н.Миклашевская), "Bəhruz Kəngərli" (K.Kərimov), "Azərbaycan incəsənəti" (M.Hüseynov), "Azərbaycan memarlığı və incəsənəti üzrə tədqiqat və materiallar" (A.V.Salamzadə), "N.Həbibovun Sovet Azərbaycanının yaradıcı mədəniyyəti oçerki: nəqqaşlıq, heykəltaraşlıq və qrafika" (Очерки изобразительного искусства советского Азербайджана: живопись, скульптура, графика (Н.Габибов) redaktoru olmuş, Sadiq bəy Əfşarın "Qanun-üs-süvər"ini (1971) tərcümə etmişdir. Onun yetirdiyi kadrlar sənətşünaslıq sahəsində uğurlar qazanmışlar.

A.Qazıyev 1928-ci ildə Azərbaycan Gənc Rəssamlar İttifaqının, 1930-cu ildə isə Azərbaycan İnqilabi Təsviri Sənət İşçiləri İttifaqının üzvü olmuşdur.

Görkəmli rəssam, alim, sənətşünaslıq üzrə elmlər doktoru, professor Adil Qazıyev 66 yaşında, 1972-ci ilin dekabr ayının 31-də Bakı şəhərində vəfat etmişdir.

İnamla deyə bilərik ki, görkəmli sənətşünas-alim, professor Adil Qazıyevin elmi və yaradıcı fəaliyyəti milli-mənəvi dəyərlərimizin tədqiqinə və təbliğinə xidmət etmişdir. Onun sənətşünaslıq və rəssamlıq sahəsində əldə etdiyi nailiyyətlər bu gün də onu yaşadır. Müstəqillik illərində də yaradıcılığı ilə bağlı yeni-yeni dissertasiya, monoqrafiya, kitab və elmi məqalələr yazılmış və yazılmaqdadır. Əminliklə deyə bilərik ki, görkəmli alimin yaradıcılıq irsi gələcək sənətşünas-alim və rəssamların ərsəyə gəlməsində əsalı mənbə rolu oynayacaqdır.

**ƏDƏBİYYAT**

1. Əliyev Z. Sənətşünas-rəssam taleyi. "Mədəniyyət" qəzeti, 21 fevral 2020–ci il.
2. Əsgərova N. Görkəmli rəssam Əzim Əzimzadənin əsərləri tarixi mənbə kimi. Milli Azərbaycan Tarixi Muzeyi, Bakı: "Elm", 2017, 368 s, s. 45-52.
3. Quliyev Ə. Qısa və mənalı ömür yolu. "Xalq qəzeti", 31 iyul 2011-ci il.
4. Mərdanov M. Azərbaycan Təhsil Tarixi. 2 c-də, II c, Bakı, 2011, 548 s, s. 266.
5. Naxçıvan ensiklopediyası. 2 c-də, 1 c, Naxçıvan, 2005, 360 s, s. 332.
6. https://kulis.az

***AMEA Naxçıvan Bölməsi**
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***
***E-mail: aliqehreman@ yahoo.com***

**Ali Gahramanov**

**ARTIST, ART HISTORIAN ADIL GAZIYEV**

The article provied information about the career of artist, Doctor of Art studies Adil Gaziyev, a student of Bahruz Kangarli, who created a tradition of professional painting in the field of fine arts in Azerbaijan, and emphasized the unique nuances of his work. The article, based on a number of historical sources, also mentioned books, monographs, articles, and translation activities about Azerbaijan's decorative applied and fine arts by Professor Adil Gaziyev, an artist, scientist, art critic, editor, and translator. It also told about the successful artistic structures he gave to the works staged in the Nakhchivan theater in 1922-1929. These works include the following: "Mashadi Ibad", "Shah Abbas and Khurshidbanu","Ashig Garib","Layla and Majnun","The Cloth Peddler" (U. Hajibeyov), "Young at Fifty Years Old" (Z. Hajibeyov)," The magic fairy", "Agha Muhammad Shah Gajar" (A. Hagverdiyev), "Pahlavanani-zamana" (N.Vazirov), "Falcon's nest"(S.S.Akhundov), "Haji Qara" (M.F.Akhundov), "Blacksmith Gave" (S. Sami), "The Dead", "My mother's book" (J. Mammadguluzadeh), "Oktay Eloghlu","Aydın", "Sheyda", "Sheikh Sanan" (H.Javid), "Sun of Freedom" (M. Nasirli), "Nadir Shah" (N.Narimanov), "Indian rebels" (H. Fitrat), "Marriage", "Inspector" (N. Gogol), "Othello", "Hamlet" (Shakespeare), "Students' trick" (B. Thomas), "Bloody Castle" (A. Duma), "Intrigue and Love", "The robbers" (F.Schiller), George Danden (J. Moliere) and others.

**Keywords:** *Adil Gaziyev, artist, art historian, graphic, miniature, performance, art design.*

**Али Гахраманов**

**ХУДОЖНИК, УЧЕНЫЙ - ИСКУССТВОВЕД АДИЛЬ ГАЗИЕВ**

В статье рассматривается художественный путь художника, доктора искусствоведения Адиля Газиева, создателя профессиональных художественных традиций в области изобразительного искусства Азербайджана. В статье, основанной на ряде исторических источников, также упоминаются связанные с декоративно-прикладным и изобразительным искусством Азербайджана книги, монографии, статьи, а также переводческая дея-

тельность профессора Адиля Газиева, художника, ученого, искусствоведа, редактора и переводчика, художественная постановка спектаклей «Мешади Ибад», «Шах Аббас и Хуршидбану», «Ашуг Гариб», «Лейли и Меджнун», «Аршин мал алан» (У. Гаджибекова), «Пятидесятилетний юноша» (З. Гаджибекова), «Сказочная магия», «Ага Мухаммад Шах Гаджар» (А. Хагвердиева), «Пахлаванани-замана» (Н. Веазирова), «Соколиное гнездо» (С. С. Ахундова), «Гаджи Гара» (М. Ф. Ахундова), «Демирчи Гава» (Ш. Сами), «Мертвецы», «Книга моей матери» (Дж. Мамедгулузаде), «Огтай Элоглу», «Айдын» (Дж. Джаббарлы), «Шейда», «Шейх Санан» (Г.Джавида), «Солнце свободы» (М. Насирли), «Надир-шах» (Н. Нариманова), «Индийские изобретатели» (Г. Фикрата), «Женитьба», «Ревизор» (Н. Гоголя), «Отелло», «Гамлет» (В. Шекспира), «Студенческий трюк» (Б. Томаса), «Кровавый замок» (А. Дюма), «Двум сиротам» (К. Гольдони), «Хитрость и любовь», «Беглецы» ( Ф. Шиллера), «Джордж Данден» (Ж. Мольера) и другие.

**Ключевые слова:** *Адиль Газиев, художник, ученый-искусствовед, график, миниатюра, спектакль, художественное оформление*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 05.06.2021**
**Son variant 07.07.2021**